*Qədim, doğma Qobustanım*

# QOBUSTAN

*Qobustan Rayon İcra Hakimiyyətinin orqanı*

Qəzet 1992-ci ildən çıxır ∗ **İCTİMAİ-SİYASİ QƏZET** ∗ №009 (197) sentyabr 2020-ci il

# Türkiyə-Azərbaycan dostluq və qardaşlıq münasibətləri əbədidir



- Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında hərbi əməkdaşlıq haqqında sazişə əsasən, illik plana uyğun olaraq iyulun 29-dan avqustun 10-dək ölkəmizdə hər iki ölkənin quru qoşunları və hərbi hava qüvvələrinin iştirakı ilə birgə genişmiqyaslı döyüş atışlı taktiki və taktiki-uçuş təlimləri keçirilib;

- Birgə təlimlərə iki ölkənin ordularının şəxsi heyəti, zirehli texnikası, artilleriya qurğuları və minaatanları, həmçinin hərbi aviasiya və hava hücumundan müdafiə vasitələri cəlb edilib. Plana əsasən təlimlər avqustun 1-dən 5-dək quru qoşunlarının da cəlb edilməsi ilə Bakıda və Naxçıvanda, hərbi aviasiya vasitələrinin iştirakı ilə isə iyulun 29-dan avqustun 10-dək Bakı, Naxçıvan, Gəncə, Kürdəmir və Yevlax şəhərlərində keçirilib;

- Türkiyə Azərbaycan müstəqillik qazandıqdan sonra Silahlı Qüvvələrin formalaşmasına yardım göstərib. O zaman orduda kadr çatışmazlığı var idi. Sonrakı dövrdə də iki ölkə arasında hərbi-texniki əməkdaşlıq inkişaf etdi. Türkiyə Azərbaycanda kadrların hazırlanması, hərbi məktəblərin proqramlarının formalaşmasında böyük rol oynayıb. Hər il Azərbaycan və Türkiyə silahlı qüvvələri birgə hərbi təlimlər keçirirlər;

- Prezidenti İlham Əliyev avqustun 13-də Türkiyə Respublikasının Milli Müdafiə naziri Hulusi Akarın başçılıq etdiyi nümayəndə heyətini qəbul edərkən bildirib ki, hərbi əməkdaşlıq baxımından bu təlimlərin çox böyük önəmi var, eyni zamanda, insanlar arasındakı əlaqələrin, xalqlar arasındakı qardaşlığın gücləndirilməsi üçün təlimlərin çox böyük əhəmiyyəti və faydası var. Prezident bildirib: "Bu, bir ənənədir. Bildiyiniz kimi, hər il həm Azərbaycanda, həm də Türkiyədə 10-dan çox birgə təlim keçirilir. Ona görə bu təlimlərin keçirilməsi adi haldır. Burada hansısa bir fövqəladə hal axtarmaq lüzumsuzdur. Biz də müşahidə edirik ki, bu təlimlər bəzi ölkələrdə narahatlıq doğurur. Ancaq buna heç bir əsas yoxdur. Bu, Türkiyə-Azərbaycan birliyinin, qardaşlığının növbəti təzahürüdür";

- "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında hərbi maliyyə əməkdaşlığı haqqında" 2020-ci il fevralın 25-də Bakı şəhərində imzalanmış Saziş cari ilin iyulun 2-də qüvvəyə minmişdir;

- İki ölkə arasında hərbi əməkdaşlığın bugünkü vəziyyətini 3 vacib məsələ müəyyənləşdirir:

- Birincisi, NATO ilə əməkdaşlıq sənədləri. Bu çərçivədə NATO-nun aparıcı ölkələrindən olan Türkiyə Azərbaycan Silahlı Qüvvələrinin modernləşdirilməsinə kömək göstərir;

- İkincisi, Azərbaycanın təhlükəsizlik sənədləri və iki ölkə arasında imzalanmış strateji müqavilələr;

- Üçüncüsü, Türkiyənin milli regional maraqları və həmçinin, qardaş ölkənin milli təhlükəsizlik sənədləri ilə bağlıdır. 2009-cu ildən etibarən Türkiyənin milli təhlükəsizlik sənədlərində dəyişiklik prosesi başlayıb;

- İki ölkə arasında hərbi əməkdaşlıq baxımından perspektiv planlar da mövcuddur. Buraya hərbi kadrların hazırlanması, maddi-texniki təchizat məsələlərindən tutmuş, müdafiə sənayesi sahəsində yeni birgə əməkdaşlığa qədər məsələlər daxildir. Perspektivdə iki ölkə arasında hərtərəfli hərbi əməkdaşlığın gücləndirilməsi istiqamətində yeni imkanlar mövcuddur. Türkiyə Azərbaycana taktiki və strateji dövrdə hərbi dəstəyini davam etdirməkdə qərarlıdır;

- Ermənistanın işğalı nəticəsində nəzarətdən kənar qalmış Azərbaycan sərhədlərindən qeyri-qanuni məqsədlərlə istifadə məsələsi Türkiyə-Azərbaycan hərbi əməkdaşlığı üçün mühüm istiqamətlərdən hesab olunur. İki ölkə terrorizmdən əziyyət çəkməklə bu istiqamətdə ayrı-ayrılıqda və birgə mübarizənin bu günü və perspektivlərini həmişə diqqət mərkəzində saxlayır;

- İki ölkə arasında hərbi təhsil, kadrların hazırlanması sahəsində əməkdaşlığın inkişafı prioritet sahələrdən biridir. Bu istiqamətdə ciddi planların olduğu bildirilir.

- Ermənistan, Yunanıstan və Kipr arasında hərbi əməkdaşlıqla bağlı Azərbaycan narahatdır. Ermənistan ərazilərimizi işğal etmiş ölkədir. Xocalıda soyqırımı aktı törədib, bir milyon azərbaycanlını evlərindən didərgin salıb, tarixi, mədəni, dini abidələrimizi dağıdıb, işğal edilmiş ərazilərdə etnik təmizləmə siyasəti həyata keçirib, beynəlxalq hüququ pozur, BMT Təhlükəsizlik Şurasının və başqa təşkilatların qətnamələrinə əməl etmir;

- Ermənistan aqressiv davranır. Dövlət sərhədində son gərginliklər Ermənistanın təxribatıdır, terror aktı törətmək üçün sonuncu cəhd zamanı təmas xəttini keçmək istəyərkən erməni zabiti saxlanılıb və o, artıq etiraf edib ki, onun qrupu bizim hərbçilərimizə və mülki şəxslərə hücum etmək məqsədi güdüb;

- Ermənistan Azərbaycana düşmən mövqedədir və bu onların qərarı olub. Sözsüz ki, Ermənistanın istənilən ölkə ilə sıx hərbi əməkdaşlığı narahatlıq doğurur. Ermənistanın təxribatından dərhal sonra Azərbaycan Rusiyadan Ermənistana intensiv silah təchizatına reaksiya göstərib. Aktiv toqquşmalar iyulun 16-da dayandırıldı və iyulun 17-dən başlayaraq 2 sentyabra qədər Rusiyadan Ermənistana Xəzəryanı dövlətlərin hava məkanı vasitəsilə çoxsaylı yük reysləri həyata keçirilib. Ermənistanla hərbi əməkdaşlıq bizi narahat edən məsələdir. Çünki bu, Azərbaycan üçün mühüm təhdid törədir, çünki bu silahlardan istifadə edərək onlar bizim hərbçilərimizi, mülki şəxsləri öldürürlər;

- Türkiyə və Yunanıstan arasında Şərqi Aralıq dənizi regionunda bu yaxınlarda baş verən gərginlikdə Azərbaycan Türkiyəni dəstəkləyir. Türkiyə təkcə bizim dost və tərəfdaşımız yox, bizim üçün qardaş ölkədir. Biz heç bir tərəddüd etmədən Türkiyəni dəstəkləyirik və bütün hallarda dəstəkləyəcəyik. Biz dəstəyi türk qardaşlarımızdan da görürük;

- Beynəlxalq ictimaiyyət növbəti dəfə Azərbaycan-Türkiyə münasibətlərinin qardaşlıq səviyyəsində olmasına şahidlik etdi. Bizi birləşdirən təkcə dövlətlərimizin maraqları deyil, bizi birləşdirən sadiqlik, etibar və qarşılıqlı dəstəkdir. Beynəlxalq tədbirlər zamanı dəfələrlə bu qarşılıqlı dəstəyin şahidi olmuşuq;

- Yunanıstanın Azərbaycandakı səfirini qəbul edərkən ölkə başçısı tərəfindən səsləndirilmiş sözlər: "Türkiyə təkcə bizim dost və tərəfdaşımız yox, bizim üçün qardaş ölkədir. Biz heç bir tərəddüd etmədən Türkiyəni dəstəkləyirik və bütün hallarda dəstəkləyəcəyik" - sadəcə siyasi mesaj kimi qəbul olunmamalıdır. Bu cür sözlər etibarlı siyasətin əxlaq fəlsəfəsini özündə əks etdirir. Mövcud yanaşma isə yalnız özünə inanan və potensialına güvənən siyasi liderlərə məxsus olan keyfiyyətdir;

- Cənab Prezident Yunanıstanın səfirini qəbul etdiyi zaman istifadə etdiyi ritorika yalnız güclü dövlət başçılarına xasdır;

- Prezidentin: "Mən istəyirəm ki, siz bizim mövqeyimizi biləsiniz" kimi sözləri Azərbaycan açıq diplomatiyasına işarə edir. Bizim dövlət başçımız o nadir ölkə rəhbərlərdəndir ki, ikili standartlar siyasətini açıq tənqid edir;

- Düşünürük ki, dövlət başçısı tərəfindən həmin görüşdə səsləndirilmiş sözlər ümumən Azərbaycanın mövqeyini, gücünü və beynəlxalq münasibətlər sistemində yerini nümayiş etdirir.

# Ermənistan bizim torpaqlarımızdan qeyd-şərtsiz və tam çıxmalıdır



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 19-da Heydər Əliyev adına Bakı dərin özüllər zavodunda "Abşeron" yatağının dəniz əməliyyatlarının təməlqoyma mərasimində iştirak edib.***

Ölkə başçısı mərasimdən sonra yerli televiziyalara müsahibə verib. AZTV, İctimai və Real Televiziya kanalına müsahibə verən cənab Prezident Dağlıq Qarabağ münaqişəsinə aid çıxışlar edib.

İlk olaraq tarixi aspektlərə söykənərək vaxtilə ölkəmizə qarşı aparılan qarayaxma kampaniyalara toxunan dövlət başçısı bildirib ki, "Sovet İttifaqı rəhbərliyində Heydər Əliyev amili erməniləri uzun illər separatçı hərəkətlərini reallaşdırmağa imkan verməmişdir. Yalnız Heydər Əliyev Siyasi Bürodan uzaqlaşdırılandan iki həftə sonra ermənilər Dağlıq Qarabağı Azərbaycandan ayırıb Ermənistana birləşdirmək haqqında iddia qaldırdılar.

Sovet İttifaqının son illərində Azərbaycana qarşı böyük ədalətsizliklər edilib. Azərbaycan xalqının cəlladı Qorbaçov və onun ermənilərdən ibarət yaxın ətrafı ölkəmizə qarşı nifrətlə yaşayırdı. Dağlıq Qarabağda xüsusi komitənin yaradılması və o komitəyə Qorbaçovun köməkçisi Arkadi Volskinin təyin edilməsi Qarabağın Azərbaycandan qoparılma planı idi. Volskinin vaxtında azərbaycanlılar o vaxt Dağlıq Qarabağın bəzi yerlərindən zorla çıxarılmış, ilk etnik təmizləmə siyasəti aparılmış, azərbaycanlılar Xankəndidən qovulmuşlar. Azərbaycanın o zamankı rəhbərliyi xalqa xəyanət etmişdir.

Sovet İttifaqının 366-cı alayı azərbaycanlılara qarşı etnik təmizləmə işlərində, Xocalı soyqırımında, torpaqlarımızın işğal altına düşməsində həlledici rol oynamışdır".

Azərbaycanın illərdir Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində göstərdiyi diplomatik səylərin müqabilində, işğalçı Ermənistan yalnız təxribatçı addımlarla gündəmə gəlir. Bu çirkin niyyətini cəbhə xəttində yox, Azərbaycan-Ermənistan dövlət sərhədində həyata keçirir. Prezident İlham Əliyev müsahibə verərkən bildirib ki, "Ermənistanın bu günkü rəhbərliyi ölkəni uçuruma aparır. Ermənistanın indiki rəhbərliyi məsuliyyətsizdir, addımlarının nəyə gətirib çıxara biləcəyini düzgün təhlil edə bilmir. İki il bundan əvvəl Ermənistanda dövlət çevrilişi baş verəndə Azərbaycan buna neytral qaldı. Çünki Azərbaycan tərəfi Koçaryan-Sarkisyan xuntasının hakimiyyətdən getməsində maraqlı idi. Ermənistanın bundan əvvəlki hakimiyyəti erməni xalqında da ancaq nifrət hissləri doğururdu".

İyulun 12-dən 16-dək Tovuz rayonu istiqamətində baş verən təxribat zamanı və iyulun 17-dən bu günədək Rusiyadan Ermənistana daşınan hərbi təyinatlı yüklərin həcminin 400 tondan artıq olduğu, Serbiyadan Ermənistana mina atanlar və müxtəlif kalibrli hərbi sursat da daxil olmaqla böyük həcimdə silah sursatların daşındığı faktı ortaya çıxıb.

Cənab Prezident müsahibəsində qeyd edib ki, "Serbiya və Rusiya prezidentləri ilə də mənim telefon söhbətim oldu və mən narahatlığımı ifadə etdim. Gürcüstan öz ərazisindən Ermənistana silahların daşınmasına imkan vermədi. Ona görə mən Gürcüstan hökumətinə təşəkkürümü bildirirəm.

Ermənistan və Gürcüstanda yaşayan, bir çox hallarda gürcü familiyaları altında gizlənən etnik ermənilər hər vəchlə çalışırlar ki, Gürcüstan-Azərbaycan əlaqələrinə zərbə vursunlar.

Gürcüstanda keçən il baş vermiş bəzi təxribat xarakterli hadisələrin mənbəyi də elə ermənilərdir. Onların əsas məqsədi Gürcüstan-Azərbaycan əlaqələrini pozmaqdır. Amma buna nail olmayacaqlar.

Gürcüstanda yaşayan bəzi yerli ermənilər Ermənistan rəhbərliyinin təhriki ilə orada qızışdırıcı fəaliyyətlə məşğuldurlar.Onlar separatizmə meyil göstərirlər."

Çirkin mövqeyindən əl çəkməyən mənfur düşmən tarixən təxribatlara əl atıb, amma buna baxmayaraq Azərbaycan ordusu tərəfindən layiqli cavab alıb.

Ermənistan özü başladığı təxribat əməllərini Azərbaycana qarşı qara piyar kimi istifadə etməyə çalışıb, Beynəlxalq təşkilatlar qarşısında hay-haray qaldıraraq Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına müraciət edərək, yardım istəmişdi. Prezident İlham Əliyev bir daha qətiyyətlə bildirib ki, "Bizim bir şərtimiz var, onlar bizim torpaqlarımızdan qeyd-şərtsiz və tam çıxmalıdırlar, bu, BMT Təhlükəsizlik Şurasının qətnamələrində öz əksini tapır.

Ermənistan yeni böyük müharibəyə hazırlaşır. Onların təmas xəttinə yaxın qüvvələrinin cəmləşməsi baş verir. Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını, öz müttəfiqlərini bu işlərə cəlb etmək üçün zondaj aparılır. Ermənistan təcavüzkar dövlətdir. Ermənistan terrorizmə sponsorluq edən ölkədir. Ermənistan bizim üçün daim təhlükə mənbəyidir. Ermənistan beynəlxalq hüququ yerə vurursa, Azərbaycan da beynəlxalq hüququ gözləməyəcək.

Bizə qarşı ciddi təxribat törədilərsə, onda bizim üçün heç bir məhdudiyyət olmayacaq. Artıq Ermənistan ərazisinə keçmək üçün bizə heç bir hərbi maneə yoxdur. Əgər ermənilər öz çirkin planlarından əl çəkməsələr, onlar üçün çox ağır nəticələr olacaq."

Hər zaman "Bir millət, iki dövlət" prinsiplərinə sadiq qalan Türkiyə Azərbaycanın Silahlı Qüvvələrin formalaşmasına yardım göstərib. Türkiyə Azərbaycanda kadrların hazırlanması, hərbi məktəblərin proqramlarının formalaşmasında böyük rol oynayıb. Vurğulamaq lazımdır ki, hər il Azərbaycan və Türkiyə silahlı qüvvələri birgə hərbi təlimlər keçirirlər.

"Tovuz hadisələri bir daha göstərdi ki, Türkiyə hər zaman Azərbaycanın yanındadır. Bu, növbəti Türkiyə-Azərbaycan birliyinin, qardaşlığının təzahürü idi.Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana bir daha təşəkkürümü bildirmək istəyirəm.

Biz də həmişə Türkiyənin yanındayıq və bütün məsələlərdə Türkiyənin yanında olacağıq. Bizim birliyimiz böyük sərvətimizdir. Türkiyə ilə bizi ortaq tarix, ortaq etnik köklər, din, dil, mədəniyyət birləşdirir.

Son illər ərzində Türkiyə-Azərbaycan birgə hərbi təlimlərin sayı ciddi şəkildə artmışdır.

Bu təlimlər həm Azərbaycan, həm də Türkiyəyə lazımdır, regional sabitliyə lazımdır. Çünki Ermənistan regional sabitlik üçün təhdiddir.

Naxçıvanda təlimlər keçirilmişdir və təlimlərin birində Türkiyənin Müdafiə naziri iştirak etmişdir. Bəli, bu, Tovuz hadisələrinə təsadüf edib. Bu, təsadüfidir, ya təsadüfi deyil-Ermənistan özü baş çıxarsın." -deyə cənab Prezident qeyd edib.

# Dağlıq Qarabağ bizim əzəli tarixi torpağımızdır

- Milli ordunun qətiyyəti. Ermənistan silahlı qüvvələrinin döyüş aktivliyinin qarşısını almaq, mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə Azərbaycan Ordusunun komandanlığı tərəfindən qoşunlarımızın bütün cəbhə boyu əks-hücum əməliyyatı başlaması barədə qərar verilib.

- Milli ordunun çevikliyi və peşəkarlığı. Ordumuzun şəxsi heyəti və tank bölmələri tərəfindən raket-artilleriya qoşunlarının bölmələri, cəbhə aviasiyası və pilotsuz uçuş aparatlarının dəstəyi ilə Ermənistan silahlı qüvvələrinin ön xətdə və müdafiənin dərinliyində yerləşən xeyli sayda canlı qüvvəsi, hərbi obyektləri və döyüş texnikasını aşkar edilir və onların hərəkət trayektoriyasına nəzarət aparılır.

- Azərbaycan hökuməti və Milli Ordu təxribatlara uymamağa çağırır. Qoşunlarımızın sürətli əks-hücum əməliyyatı davam edir. Bu səbəbdən əhali hadisələri izləməli və təxribat xarakterli məlumatların qarşısının alınmasında fəal iştirak etməlidir.

- Bəraəti olmayan insident. 27 sentyabr tarixində cəbhə boyunca baş verən hadisələrə görə bilavasitə Ermənistan hökuməti məsuliyyət daşıyır. Ermənistanın Noyemberyan rayonunun Şavarşavan kəndində yerləşən mövqelərdən Qazax rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən isə Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən



mövqelərimiz atəşə tutulub. Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Sarıcalı kəndi yaxınlığında, həmçinin Goranboy və Tərtər rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdə də ordumuzun mövqeləri atəşə tutulub.

- Azərbaycan məsuliyyətli ölkədir, Milli ordumuz mülki əhalinin atəşə tutmur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sözügedən mövqeyi vəziyyətdən asılı olmayaraq hər zaman qorunulur. 27 sentyabr tarixində baş vermiş hadisələr bunun sübutudur. Milli ordumuz mülki əhalini atəşə tutmur.

- 27 sentyabr hadisələri Ermənistanın yeni işğal siyasətinin təzahürüdür. Bu yeni siyasət danışıqlar prosesinin pozulması, status-kvonun təsdiqi, yeni təxribatların yaradılması və Ermənistanda yaradılmış sosial fəlakətin gizlədilməsinə xidmət edir.

- Ermənistanda rasizm siyasəti yürüdülür. Erməni hökuməti öz dövlətində Azərbaycanın düşmən obrazının formalaşmasına xidmət edən məqsədyönlü addımlar atır.

- Danışıqların pozulması ermənilərin əsas hədəflərindəndir. Açıq danışıqlardan qaçan Erməni hökuməti münaqişə boyunca müxtəlif hadisələr yaratmaqla əsaslı əngəllər yaradırlar.

- Erməni təxribatları sistemli xarakter daşıyır. İyul, avqust və sentyabr aylarında baş vermiş rəsmi Yerevanın hərbi təxribatları regiona təhlükə yaradır və Azərbaycanı hərbi qüvvədən istifadə etməyə təhrik edir.

- Təxribatlar təkcə cəbhədə yox, Yerevanın siyasi bəyanatlarında da öz əksini tapır. Ermənistanın daxili auditoriyasına xidmət edən məsuliyyətsiz bəyanatlar danışıqlar prosesinə ciddi zərbədir. Bu danılmaz fakt təkcə bizi yox, bütün beynəlxalq ictimaiyyəti düşündürməlidir. Danışıqlar prosesinin aqibətini şübhə altına qoyan rəsmi Yerevan etibarsız və məsuliyyətsiz ölkədir.

- Danışıqlardan və münaqişənin sülhlə həlli yolundan qaçan Ermənistan. Bütün təxribatlar və bəyanatlar bilavasitə ona dələlət edir ki, Ermənistan danışıqlar formatını dəyişdirmək istəyir. Bununla da onlar bütün sülh prosesini və əldə olunan nailiyyətləri sıfırlaşdırmaq istəyirlər.

- Təxribatlar Yerevanın rəsmi siyasətidir. Ermənistanın tarixi falsifikasiya və müxtəlif təxribatlar üzərində qurulub. Könüllü hərbi birləşmələrin yaradılması məhz həmin siyasətin davamıdır.

- Qanunsuz məskunlaşma siyasəti regiona təhdid yaradan siyasətdir. Ermənilərin müxtəlif yollar ilə digər ölkələrdə yaşayan erməni mənşəli əhalinin Qarabağa gətirilməsi regionun gələcəyini sual altına qoyur.

- İkili siyasət davam edir. 30 ilə yaxın bir dövrdə beynəlxalq qətnamələr kağız üzərində qalıblar.

- Azərbaycan haqq yolundadır. Ermənistan işğalçıdır, Azərbaycan isə tarixi ədalətin bərpası uğrunda mübarizə aparır. Bütün dünya bilir ki, Qarabağ Azərbaycandır, bu fakt həqiqətdir və xalq bu həqiqət uğrunda mübarizə aparmaq hazırdır.

# Dağlıq Qarabağ mübarizəsi və savaşı ümumxalq mübarizədir

- Erməni siyasətinin mahiyyəti. 27 sentyabr tarixində baş vermiş hadisələr Ermənistanın faşist mahiyyətini bütün dünyaya göstərdi.

- Ermənistan işğalçılıq siyasətindən əl çəkmir. Hadisələrin gedişatı onu göstərir ki, Ermənistanın 27 sentyabr tarixli hərbi əməliyyatı planlaşdırılmış təxribatdır. Bu səbəbdən də biz bütün ehtimal olunan ssenarilərə hazır olmalıyıq.

- Ermənistan iqtidarı çirkin üsullara müraciət edir. 27 sentyabr tarixli təxribat xarakterli hadisələr onu göstərdi ki, Ermənistan hakimiyyətinin əsas hədəfi Azərbaycan cəmiyyətində panika və təşviş yaratmaqdır.

- Dağlıq Qarabağ mübarizəsi və savaşı ümumxalq mübarizədir. Hadisələrin gedişatı ilə bağlı xalqın daim məlumatlandırılmasına dair ölkə başçısı tərəfindən verilən tapşırıq hökumətin hər zaman olduğu kimi, bu gün də xalqa arxalandığını göstərir.



- Xalq və ordu birliyi. On minlərlə insanın orduya könüllü kimi yazılması, eləcədə təxribatlar zamanı öz evlərinin tərk etməməsi faktı Azərbaycanda xalq-ordu birliyi və orduya olan inamından xəbər verir.

- Qələbələrimiz xalqın ruh yüksəkliyinin səbəbidir. Xalqın haqq tələbi, müharibəyə hazırlıq dərəcəsi və dövlətə inamı ruh yüksəkliyinin səbəbidir. Nümayiş olunan ruh yüksəkliyi qələbənin zəminidir.

- Orduya inam, əsgərlərə güvən. Orduya könüllü kimi yazılanların sayı dayanmadan artması vətənpərvərliklə yanaşı, orduya olan inamdan irəli gəlir.

- Güclü dövlət, güclü ordu. Ölkə başçısı tərəfindən ordu quruculuğuna ayrılan diqqət ölkəmizin hərbi gücünün dəstəklənməsi məsələsi reallaşan dövlət siyasətinin əsas prioritetlərdən olduğunu göstərir.

- Ermənistan hökuməti işğalçıdır. 27 sentyabr tarixli hadisələr bir daha onu göstərdi ki, Ermənistan işğalçıdır. Azərbaycan isə yalnız özünü müdafiə etmək üçün əks-hücum əməliyyatlarını həyata keçirib.

- Haqq mübarizəsi. 27 sentyabr tarixində Azərbaycana qarşı yönəlmiş təxribatlar və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin: "Bizim digər ölkənin torpaqları ilə işimiz yoxdur" fikri erməni işğalçı siyasətini ifşa edir.

- Şuşaya yaxınlaşdıran qələbələr. 27 sentyabr tarixində milli ordumuzun əks-əməliyyatları nəticəsində 7 yaşayış məntəqənin və 2 hündürlüyünün işğaldan azad olunması Azərbaycan xalqının böyük qələbəyə daha da yaxınlaşdırdı.

# Azərbaycan ordusunun muzdlu döyüşçülərə ehtiyacı yoxdur

***Ermənilərin sentyabrın 27-də səhər başladıqları hərbi təxribat nəticəsində Azərbaycanın yaşayış məntəqələri və döyüş mövqeləri şiddətli artilleriya atəşinə məruz qalıb.***

Bu təcavüz nəticəsində Azərbaycanın 11 dinc sakini, o cümlədən 2 uşaq həlak olub, hərbi qulluqçular arasında da həlak olanlar var. Azərbaycan təcavüzkara adekvat cavab verməyə və beləliklə, öz xalqımızı, öz adamlarımızı və torpağımızı müdafiə etməyə məcbur idi. Döyüşlər nəticəsində Azərbaycan Ordusu bir sıra yaşayış məntəqələrini işğaldan azad edib, həmçinin müxtəlif istiqamətlərdə strateji yüksəklikləri tutub. Fəal döyüş əməliyyatları aparılır.

Türkiyənin rolu regionda sabitləşdirici xarakter daşıyır. Türkiyə qardaş ölkə və müttəfiqdir. Ermənistanın Azərbaycana hücum etməsini dünya ictimaiyyətinin bildiyi ilk saatdan etibarən Türkiyə dövlət başçısı və digər rəhbərlər səviyyəsində birmənalı olaraq Azərbaycanı dəstəklədiyini, beynəlxalq hüququ dəstəklədiyini bildirib. Ona görə ki, Ermənistan 30 ilə yaxın müddətdə Azərbaycan ərazisini işğalda saxlamaqla beynəlxalq hüququ kobud şəkildə pozur. Türkiyə mənəvi dəstək göstərir və Türkiyə rəhbərliyinə, Türkiyə Prezidentinə və türk xalqına Azərbaycan ilə həmrəy olduğuna və dəstəklədiklərinə görə təşəkkür edirik. Guya Türkiyənin münaqişə tərəfi kimi iştirak etməsi barədə erməni tərəfin yaydığı bütün şayiələr təxribat xarakteri daşıyır, indiki dildə desək bu, feyk-nyusdur. Türkiyənin münaqişədə iştirakı barədə heç bir sübut yoxdur və buna zərurət yoxdur. Azərbaycan Ordusu öz xalqının və öz ərazisinin müdafiəsini təmin etmək üçün kifayət qədər hazırlıqlıdır.

İnformasiya məkanında Ermənistanın SU-25 döyüş təyyarəsinin Türkiyənin F-16 qırıcı təyyarəsi tərəfindən vurulması haqqında xəbər yayılıb. O, heç nə ilə təsdiq edilməyib. Türkiyə Hərbi Hava Qüvvələrinin F-16 təyyarələri döyüş əməliyyatlarında heç bir şəkildə iştirak etmir. Bu gün müasir texnologiyaları nəzərə alsaq nəyisə gizlətmək çox çətindir. Çünki obyektiv müşahidə formaları var, peyk müşahidələri var



və ona görə də bunun növbəti təxribat olmasını yoxlamaq çox asandır. Erməni tərəfin bu cür yalan xəbərlər yaratmaqda məqsədi aydındır. Əvvəla, öz ərazi bütövlüyünün bərpası vəzifəsini hazırda şərəflə yerinə yetirən Azərbaycan Ordusunun döyüş qabiliyyətini süni şəkildə azaltmaq, həmçinin belə təsəvvür yaratmaq ki, münaqişə genişlənir, ona üçüncü ölkələr qoşulur və beləliklə, öz təxribatına haqq qazandırmaq üçün mümkün qədər çox ölkə cəlb etməyə çalışmaq. Azərbaycan bütün məsuliyyəti ilə bəyan edir ki, Türkiyə münaqişə tərəfi deyil, münaqişədə heç bir şəkildə iştirak etmir və buna zərurət yoxdur.

Azərbaycan danışıqlarda həmişə konstruktivlik nümayiş etdirib. Vasitəçilik missiyası üçün cavabdeh olan Minsk qrupunun həmsədrləri də bunu təsdiq edə bilərlər. O cümlədən son iki ildə dəfələrlə bəyan edilib ki, illər boyu işlənib hazırlanmış, Minsk qrupunun və onun həmsədrlərinin danışıqlar prosesi üçün əsas hesab etdikləri nizamlama prinsiplərinə sadiqik. Üstəlik son iki ildə və bundan əvvəl də dəfələrlə bəyan edilib ki, danışıqların formatına da sadiqik.

Münaqişənin yalnız iki tərəfi var - Ermənistan və Azərbaycan. Lakin son illər ərzində, Ermənistandakı indiki hakimiyyətin törətdiyi Soros çevrilişindən sonra nələr baş verib? Ermənistanın baş naziri açıq-aşkar bəyan edir ki, "Qarabağ Ermənistandır və nöqtə". Belə olan halda hansı danışıqlar prosesindən söhbət gedə bilər. ATƏT-in Minsk qrupu tərəfindən işlənib hazırlanmış prinsiplərin mahiyyəti ondan ibarətdir ki, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti ətrafındakı ərazilər Azərbaycana verilməlidir. Lakin Ermənistanın baş naziri deyir ki, "Qarabağ Ermənistandır" və üstəlik, deyir ki, danışıqlar Dağlıq Qarabağın oyuncaq rejimi ilə aparılsın. Beləliklə, danışıqların artıq 20 ildən bəri mövcud olan formatını dəyişməyə çalışır. Deməli, Ermənistan bilərəkdən danışıqlar prosesini pozur, qəbuledilməz tələblər irəli sürür və əgər Minsk qrupu son vaxtlar nizamlamaya kimin əngəl olması barədə daha fəal danışmağa başlayırsa, sentyabrın 27-də, bundan əvvəl isə iyulun 12-də olduğu kimi, təxribatlar törədirlər. Dövlət sərhədindəki bizim mövqelərəmizə hücum edilib. ATƏT-in Minsk qrupunun həmsədrləri isə Rusiya, Fransa və ABŞ-ın dövlət başçılarının şəxsində dəfələrlə bəyanatlar veriblər ki, status-kvo qəbuledilməzdir. Bu isə o deməkdir ki, işğal altında olan ərazilər Azərbaycana qaytarılmalıdır. Azərbaycan danışıqlara sadiqdir, lakin Ermənistan tamamilə əks hərəkətlər görür.

Ermənistan artıq bir neçə ay idi ki, hücuma - yeni müharibəyə hazırlaşırdı. Onların hərəkətlərinin və bəyanatlarının xronologiyası aşkar göstərir ki, onlar bu təxribata şüurlu şəkildə gedirdilər. Prezident İlham Əliyev BMT Baş Assambleyasının tribunasından çıxış edərkən demişdi ki, Ermənistan müharibəyə hazırlaşır və onu dayandırmaq lazımdır. İyul ayında onlar dövlət sərhədindəki yaşayış məntəqələrə silahlı hücum etdilər. Bu, münaqişə zonasından uzaq bir yerdir. O vaxt bir dinc sakin və bir neçə hərbi qulluqçu həlak oldu. Döyüşlər dörd gün davam etdi. Ermənistan ərazisində heç bir hərbi hədəfimiz olmayıb və yoxdur. Buna görə də Ermənistan silahlı qüvvələri torpaqlarımızdan çıxarılandan dərhal sonra qarşılıqlı razılaşmaya əsasən atəş dayandırıldı.

Ermənistan açıq-aşkar, nümayişkaranə şəkildə əslən Livandan olan erməniləri Azərbaycanın işğal edilmiş ərazilərində və qədim Şuşa şəhərində məskunlaşdırılmasını elan edir, bu da müharibə cinayətidir. Bu, Cenevrə Konvensiyasının pozulması deməkdir. Bunu nümayişkaranə şəkildə edirlər. Sonra onlar Şuşada - Azərbaycan mədəniyyətinin qədim incisində cinayətkar Dağlıq Qarabağ rejiminin qondarma başçısının qondarma inauqurasiyasını keçirirlər. Bütün bunlar şüurlu provokasiyalar, Azərbaycanı münaqişəyə cəlb etmək və cavab hərəkətlərinə təhrik etməkdir. Azərbaycan təmkin, konstruktivlik və sağlam düşüncə nümayiş etdirdi, lakin onların niyyətləri baş tutmayanda bu cür cəhd göstərdilər.

Daha bir səbəb Ermənistanda mövcud olan daxili siyasi böhrandır. Bu gün Ermənistanda Soros rejimi mövcuddur. Paşinyan çoxlu vədlər verib və bu vədləri yerinə yetirə bilmir, əslində, ölkə böhran içindədir. Beləliklə, ona bir xarici amil, necə deyərlər, qarışıqlıq lazım idi ki, əhalinin diqqətini yayındırsın, o da bunu edə bildi. Onlar növbəti dəfə hücum etməzdən iki gün əvvəl Ermənistanın əsas müxalifət partiyasının lideri həbs edildi. Yəni, Paşinyanın diktator, despotik rejimi öz ölkəsindəki bütün müxalifəti məhv edirdi və indi Azərbaycan xalqına qarşı yenidən təcavüz nümayiş etdirir.

Azərbaycan ordusunun muzdlu döyüşçülərə ehtiyacı yoxdur. Bu, növbəti feyk-nyusdur. Suriyadan heç bir muzdlu yoxdur. Bu barədə heç bir fakt, heç bir sübut yoxdur. Bunu erməni təbliğatı ortaya atıb və müxtəlif saytlarda, müxtəlif kütləvi informasiya vasitələrində dövr edir. Buna heç bir ehtiyac yoxdur. Azərbaycanın hazırlıqlı ordusu var, çox böyük səfərbərlik ehtiyatı var. Dünən qismən səfərbərlik elan edilib. 2 milyon əhalisi olan Ermənistana qarşı Azərbaycan 10 milyon əhalisindən 10 minlərlə ehtiyatda olanları orduya çağırır, insan ehtiyatlarına ehtiyacımız yoxdur. Azərbaycan özünü müdafiə etməyə və təcavüzkarı elə cəzalandırmağa qadirdir ki, o, bir daha Azərbaycan tərəfə baxmağa cəsarət etməsin.

# Veteran Namiq Abdulhəşimov

***Abdulhəşimov Namiq Gülhəşim oğlu 1968-ci ildə Qobustan rayonunun Cəmcəmli kəndində anadan olub. Doğma kənddəki orta məktəbi bitirib. Təhsilini davam etdirmək üçün Rusiyanın Vladimir şəhərinə gedib. Lakin bir müddət sonra- 1986-cı ildə həqiqi hərbi xidmətə - Özbəkistanın Çirçik şəhərinə göndərilib. Xidmətdə olarkən hərbi hissə komandiri tərəfindən dəfələrlə valideynlərinə təşəkkür məktubları gəlib.***

Hərbi xidmətdən altı ay keçəndən sonra Namiq də Sovet ordusunun tərkibində Əfqanıstana göndərilir. Yaşlı insanların yaxşı yadındadır ki, o vaxtlar Əfqanıstanın daxilində qanlı döyüşlər gedirdi. Namiq Abdulhəşimov da il yarım həmin alovlu məkanda qulluğunu yerinə yetirdi. 1988-ci ildə ehtiyata buraxıldı. Hal-hazırda kiçik



leytenant rütbəsi daşıyan Namiq həm də Əfqanıstan veteranıdır.




Namiq hərbi xidmətdəki fədakarlığına görə bir sıra təltiflərə və eyni zamanda "Əfqanıstan xalqının millətlərarası" medalına layiq görülmüşdür.

O həm də Qarabağ torpağında ermənilərin bizə qarşı apardığı ədalətsiz döyüşlərdə də könüllü olaraq iştirak etmişdir.

Əfqanıstan torpağında olduğu günləri xatırlayan Namiq bildirdi ki, biz bir əsgər kimi verilən əmrləri yerinə yetirirdik. Çox ağır günlər idi. Bildiyimə görə həmin məkanda 208 nəfər həmyerlimiz həlak olub. Sağ qalanlardan bir çoxu Qarabağda gedən döyüşlərdə iştirak edib. Hansı ki, onlardan da 17 nəfəri Milli Qəhrəman adına layiq görülüb. Biz veteranlara dövlətimizin qayğısı günbəgün artmaqdadır.

Namiq Abdulhəşimov həm də gözəl ailə başçısıdır. Üç övladı var. Kiçik oğlu Sadiq Xarkov şəhərindəki universitetlərin birində təhsil alır.

***Məhəmməd Bayramov***

# Azərbaycan bütün məsələlərdə və Kəşmir məsələsində həmişə Pakistanı dəstəkləyir

***Ölkələrimiz arasında strateji münasibətlər, qardaş münasibətləri bir daha təsdiqləndi. Ermənistanla Azərbaycan arasında münaqişənin həlli ilə bağlı Pakistanın Azərbaycana davamlı dəstəyinə görə minnətdarıq.***



Kəşmir problemində Pakistanın yanındayıq. Azərbaycan bütün məsələlərdə və Kəşmir məsələsində həmişə Pakistanı dəstəkləyir. Bu qarşılıqlı dəstək əməkdaşlığımızın qardaşlıq xüsusiyyətini əks etdirir. İkitərəfli əlaqələrdə siyasi sahədən əlavə iqtisadi məsələlər üzərində diqqət cəmləşdirməliyik. Qarşılıqlı ticarəti stimullaşdırmaq və investisiyalar sahəsində daha fəal münasibətləri qurmaq üçün böyük potensial mövcuddur.

Azərbaycanın ərazi bütövlüyü məsələləri ilə bağlı Pakistanın qətiyyətli mövqeyinə görə minnətdarıq. Pakistan Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsinə görə Ermənistanı tanımayan ölkədir. Bu, qardaşlığın əsl nümayişidir. Bütün hallarda Pakistan həmişə yanımızdadır. Pakistanın Xarici İşlər naziri bu yaxınlarda Ermənistanın ölkəmizə qarşı təxribatı ilə bağlı bəyanat verib. Bu bəyanat haqq işimizi tam dəstəkləyir. Sentyabrın 27-də Ermənistan Azərbaycana qarşı yeni hərbi təxribata başladı. Bu da onların işğalçı siyasətinin davamıdır. Keçən ay Ermənistan tərəfindən çox kəskin təcavüz aktlarını müşahidə etdik. İyul ayında baş verənlər beynəlxalq ictimaiyyətə yaxşı məlumdur və hər kəs bilir ki, Tovuz rayonunda Ermənistan-Azərbaycan dövlət sərhədində kəndləri və hərbi mövqeləri atəşə tutan Ermənistan olub.

Azərbaycan Ordusu cavab tədbiri görməli idi. Onlara adekvat cavab verildi. Onların yeni əraziləri işğal etmək planları uğursuzluğa düçar oldu. Azərbaycan Ordusu bir daha öz gücünü nümayiş etdirdi və erməni ordusu etdiklərindən peşmançılıq keçirmək məcburiyyətində qaldı;

Prezident İlham Əliyevin qeydləri, bəyanatları, müsahibələri və yeni təcavüzdən bir neçə gün öncə BMT Baş Assambleyasında çıxışı Ermənistanın dayandırılması barədə beynəlxalq ictimaiyyət üçün siqnal idi. Prezident İlham Əliyev Ermənistanın açıq-aşkar yeni müharibəyə hazırlaşdığını və dayandırılmalı olduğunu dedi. Sentyabrın 27-də onlar mülki istiqamətlərdən kəndlərə, hərbi mövqelərə hücum etməyə başladılar və bu iki gündə mülki şəxslər arasında itkilərimiz oldu. Əfsuslar olsun ki, mülki şəxslər arasında itkilərin sayı artır. Ermənistan silahlı qüvvələri tərəfindən 10 mülki şəxs, o cümlədən aralarında iki uşaq olan 5 nəfərdən ibarət bir ailə öldürülüb. Mülki şəxslər arasında 20-dən çox yaralı var. Bu, bir daha erməni cinayətkar rejiminin faşist mahiyyətini nümayiş etdirir. Bu dəfə onlara növbəti dərs veriləcək.

Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir və beynəlxalq ictimaiyyət Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Ermənistanın uzun illər ərzində təcavüzü və işğalı bütün infrastrukturun dağılmasına gətirib çıxarıb, Xocalı soyqırımından başqa, onlar mədəni soyqırımı da törədiblər. Onlar mədəni soyqırımı törədiblər. Onlar tarixi abidələri dağıdıblar, məscidləri dağıdıblar. Onlar tərəfindən hələ dağıdılmayan məscidlər heyvan saxlamaq üçün istifadə edilir. Onlar bütün müsəlman dünyasını təhqir edirlər. Təəssüflər olsun ki, Hansı rejimin hakimiyyətdə olmasından asılı olmayaraq onların islamofobiya və Azərbaycanofobiya siyasəti artıq Ermənistanın rəsmi ideologiyasına çevrilib.

Paşinyanın diktator rejimi regionda sülh və təhlükəsizliyə təhdiddir. Təəssüflər olsun ki, beynəlxalq təşkilatlar Paşinyan rejiminin etdiklərinə göz yumur. Diktatorluq artıq Ermənistanda rəsmi siyasətə çevrilib. İki sabiq prezident barəsində cinayət araşdırmaları aparılır. Jurnalistlər həbsxanada ölür. Siyasi müxalifət sıxışdırılır. Paşinyan Ermənistanın yeni diktatorudur. Lakin əfsuslar olsun ki, özünü həbsxanada əziyyət çəkən insanların müdafiəçisi kimi göstərən insan haqları təşkilatları reaksiya vermir. Bu, ikili standartların nümayişidir. Ermənistanın diktator rejimi dayandırılmalıdır və əgər beynəlxalq ictimaiyyət onları dayandırmasa, Azərbaycan onları dayandıracaq;

Minsk qrupunun həmsədr ölkələrinin prezidentləri status-kvonun qəbuledilməz olması ilə bağlı bir neçə dəfə bəyanatlarla çıxış ediblər. Ermənistan isə buna məhəl qoymur və bu üç ölkəyə hörmətsizlik nümayiş etdirir. BMT Təhlükəsizlik Şurasının Ermənistan qoşunlarının ərazilərimizdən tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnaməsi var. Ermənistan demək olar ki, 30 ildir bu qətnamələrə məhəl qoymur. Ermənistan rəsmiləri Azərbaycana qarşı, yeni ərazilər uğrunda yeni müharibə olacaq deyir. Baş nazir deyir ki, Qarabağ Ermənistandır;

Azərbaycan Dağlıq Qarabağın marionet rejimi ilə danışıqlar aparması danışıqların formatının dəyişməsi deməkdir. Livandan gələn ermənilər işğal olunmuş ərazilərdə qanunsuz məskunlaşır. Onlar işğal olunmuş ərazilərdə hərbi təlim təşkil edirlər. Onlar Dağlıq Qarabağdakı cinayətkar rejimin saxta liderinin qondarma andiçmə mərasimini Azərbaycanın qədim şəhəri olan Şuşada təşkil edirlər. Dağlıq Qarabağın cinayətkar xuntasının qondarma parlamentini Şuşaya köçürməyi qərara alırlar. Bu, Azərbaycan xalqının hisslərinin birbaşa təhqir olunmasıdır. Azərbaycan heç vaxt bununla razılaşmayacaq və onlara yerlərini göstərəcək;

Pakistanın Azərbaycana verdiyi dəstək çox əhəmiyyətlidir. Azərbaycan əməkdaşlığımızın bütün illəri boyunca bu dəstəyi hiss edir. Bu mühüm məqamda Azərbaycanın yanında kimin durması aydın görünür. Bu gün yanımızda olanlar öz mövqelərini açıq şəkildə ifadə edən ölkələrdir - qardaş Türkiyə və qardaş Pakistan;

Türkiyə Prezidenti, Ermənistan-Azərbaycan münaqişəsi məsələsi ilə bağlı çox qətiyyətli mövqeyini dəfələrlə ifadə edib və Ermənistanın təcavüzü zamanı o, bir neçə dəfə açıq şəkildə bəyanat verib ki, Türkiyə Azərbaycanın yanındadır, Azərbaycan tək deyil. Türkiyənin bütün aparıcı siyasi partiyaları da Azərbaycana dəstək olaraq yekdil mövqe ifadə etdilər. Bu mühüm məqamda yanımızda olmaqla qəti mövqe nümayiş etdirən Pakistandakı qardaşlarımıza minnətdarıq. Bu, necə deyərlər, həqiqət anıdır. Azərbaycan kimin kim olduğunu görür, kimin yanında möhkəm dayandığını görür və bunu heç vaxt unutmayacaq.

# Könüllülər Kuboku yarışları başladı

***Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin və Azərbaycan İdman Könüllüləri İctimai Birliyinin birgə təşkilatçılığı ilə könüllü təşkilatlarda fəaliyyət aparan gənclərin müntəzəm bədən tərbiyəsi və idmanla məşğul olmağa cəlb olunması məqsədilə şahmat, basketbol,atletika və futbol idman növləri üzrə Könüllülər Kubokunun rayon mərhələsinə start verilmişdir.***





Artıq Könüllülər Kubokunun proqramına daxil Basketbol üzrə oğlanların yarışına yekun vurulmuşdur. Final görüşündə Ş.Şikarov adına Sündü kənd tam orta məktəbinin komandası (məşqçi Fuad Mehbalıyev) Qobustan şəhər basketbolçuları ilə qarşılaşmışlar. Kənd komandası daha yaxşı oynayaraq 24:18 hesabı ilə qalib gəlmiş və Kubokun zona mərhələsinə vəsiqə qazanmışlar. Qalib komandanın üzvlərindən Nurlan Abdiyev, Elçin Ələsgərov və Ənvər Abdullayev xüsusilə fərqlənmişlər.

Ş.Şikarov adına Sündü kənd tam orta məktəbinin komandasına Kubokun zona mərhələsində də müvəffəqiyyətlər arzulayırıq.

# Qobustan rayonunda vətəndaşların səyyar qəbulu keçirilib






***Azərbaycan Respublikası Milli Məclisində 50 saylı Abşeron-Qobustan seçki dairəsini təmsil edən deputat Şahin Seyidzadə 22-23 sentyabr tarixlərində vətəndaşlarla qəbullar həyata keçirib.***

1 şəhər, 33 kənd və qəsəbədən ibarət olan Qobustan rayonu üzrə xüsusi karantin rejiminin tələbləri nəzərə alınaraq 2 gün ərzində keçirilən qəbullarda ümumilikdə 60-dan çox vətəndaş iştirak edib. Qəbulların birinci hissəsi 22 sentyabr günün birinci yarısı Poladlı, Yekəxana və Təsi kəndləri, ikinci yarısında isə Bədəlli, Cəmcəmli, Sədəfli kəndlərinin sakinləri ilə keçirilib.




23 sentyabr tarixində isə günün birinci yarısı Ərəbqədim, Nardaran kəndləri, günün ikinci yarısı isə Şıxzahırlı kəndi və İlanlı qəsəbə sakinləri ilə qəbul keçirilib.

Millət vəkilinin öz sosial şəbəkələrdə olan hesablarında görüşlər haqda yerləşdirilən məlumatlarda qeyd olunur ki, qəbullarda əsasən infrastruktur, kommunal, məşğulluq, kənd təsərrüfatı, social təminat, hüquq, torpaq, əmlak və təhsil sahələri üzrə müraciətlər səsləndirilib. Keçirilən qəbullarda Qobustan Rayon İcra Hakimiyyəti başçısının müavini, həmçinin adıçəkilən kəndlərin İcra Nümayəndələri də iştirak etmişdir.

Məlumat üçün qeyd edək ki, Millət vəkili Şahin Seyidzadə cari ayda təmsil etdiyi seçki dairəsinə Abşeron rayonu üzrə daxil olan kənd və qəsəbələrdən sakinlərlə 16 və 18 sentyabr tarixlərində qəbullar keçirmişdir.

***Sahib Gülməmmədov***








# Təşəkkür məktubu



***Biz Mədətovlar ailəsi bu günlərdə xoş bir müjdə aldıq, 27 sentyabr səhər saat 6 radələrində mənfur düşmənlərimizinhücumuna cavab olaraq Milli Ordumuzun əks hücümü nəticəsində torpaqlarımızın bəziləri işğaldan azad olmuşdur.***



Azad olunmuş torpaqlar arasında Murov dağın yüksəklikləridə vardır ki, həmin yüksəklikdə qardaşım Mədətiov Elman Qüdrət oğlu da qəhrəmancasına şəhid olmuşdur.

Vətənimizin hər bir yeri bizə əzizdir, qardaşımın şəhid olduğu Murov dağı isə daha müqəddəs məkandır. Bizim üçün müqəddəs olan həmin yerlərin azad edilməsi münasibətilə Ali Baş Komandanımız, prezidentimiz İlham Əliyev cənablarına və Milli Ordumuzun bütün heyyətinə ailəmiz adından təşəkkürümüzü bildiririk.

Allahdan arzumuz budur ki, işğal altında olan bütün torpaqlarımız azad olunsun. Bütün şəhidlərimizin müqəddəs ruhları şad olsun.

***Şəhid bacısı***
***Mədətova Şamama***

# Maariflǝndirii tədbir keçirilmişdir

***18 avqust 2020-I il tarixində Qobustan rayon Gənclər və İdman İdarəsi tərəfindən "Karantin qaydalarına biganə qalan vətəndaşları xalqın genefonduna zərbə vururlar" şüarı altında növbəti təbliğat-maarifləndirici tədbir həyata keçirilmişdir.***



Maarifləndirici tədbir şəhərin müxtəlif hissələrində, küçə, park və digər obyektlərdə keçirilib, maskasız vətəndaşlara maska, tibbi spirt və bukletlər paylanılıb və eyni zamanda onlarla maarifləndirici söhbətlər aparılıb.



# "Qobustan fotolarda"

17-23 avqust 2020-ci il tarixlərində rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə uşaqlar və gənclər arasında rayonumuzun tarixi məkanlarını və təbii gözəlliklərini əks etdirən "Qobustan fotolarda" mövzusunda foto - müsabiqə keçirilmişdir. Müsabiqədə iştirak edən uşaq və gənclər yaşadıqları şəhər və kəndlərdə turizm üçün əhəmiyyət kəsb edən nadir təbiət məkanlarını telefonla çəkərək onlayn şəkildə Gənclər və İdman İdarəsinə təqdim etmişlər. Təqdim edilmiş foto şəkillərin ən yaxşı nümunələri idarənin facebook səhifəsində paylanılmış və izləyicilərin böyük marağına səbəb olmuşdur.

"Qobustan fotolarda" mövzusunda foto - müsabiqənin qaliblərinə rayon Gənclər və İdman İdarəsinin diplom və fəxri fərmanları təqdim edilmişdir.



# Təklə kəndində kənd arası yollar asfaltlanır











**Təklə kəndində kəndarası yolların yenidən qurulması və asfalt örtüyün çəkilməsinə başlanılmışdır. Belə ki, Qobustan rayon İcra Hakimiyyətinin başçısı Adil Məmmədovun təşəbbüsü və dəstəyi ilə, Təklə kənd İƏD nümayəndəsi Hüseynağa Hüseynovun və kənd ağsaqqlarının təşkilatçılığı ilə Təklə kəndinin mərkəzi küçəsində 1000 metrə yaxın 4 m enində yolun çəkilişinə başlanılmışdır.**

Kənd sakinlərindən Qurban, Babaqardaş, Cəbrayıl, Təvəkkül, Eldar və başqaları maddi və mənəvi dəstək olaraq yolun asfalt örtüyün çəkilməsində böyük köməklik göstərmişlər. Yolun alt hissəsinin hazırlanması üçün 27 Ford markalı yük avtomobili ilə 30 ton olmaqla çınqıl döşənmiş, 6 yerdə komunikasiya xətlərinin keçməsi üçün yerlər qoyulmuşdur. Yolun kənarlarında su ötürücü kanallar çəkilmişdir.

Kəndin mərkəzindəki "Hacı bulağı" əsaslı təmir olunmuşdur. Sentyabr ayının əvvəlindən təmir işlərinə başlanılmasına baxmayaraq qısa müddətdə təmir olunmuş və kənd sakinlərinin istifadəsinə verilmişdir. Bulağın təmir olunmasında Mahir, Orucağa, İbrahim, Rauf, Şahlar , Namiq və başqaları yaxından köməklik göstərmişlər. Bununla yanaşı həmin bulağa gedən yol da təmir olunmuşdur. Belə ki, vaxrtilə bu yodan keçmək mümkün deyildi. Təmirdən sonra kənd sakinləri rahatlıqla gələrək bulağın suyundan istifadə edirlər.

***Redaktor***

# Cəmcəmli kəndin sakini imkansız ailələrə yardım etdi

***Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyevin apardığı uğurlu daxili və xarici siyasət nəticəsində ölkəmiz günü-gündən inkişaf edir.***

Bu inkişaf bizim rayonumuzda, inkişaf edən kəndlərimizi göstərmək olar. Bizim rayonumuz aqrar rayon olduğu üçün kənd sakinləri əsasən heyvandarlıq və əkinçiliklə məşğuldurlar. Belə ki, əkin sahələrində buğda və arpa əkilir. Cənab prezidentimizin rayonumuza göstərdiyi diqqət və qayğısı sayəsində artıq kəndlərimizdə bostan və tərəvəz bitkilərinin də əkilməsinə başlanılmışdır. Kəndlərin yolunun asflatlanması, qaz, işıq problemlərinin olmadığı kəndlərimizdə dayanıqsız suyun verilməsi də artıq öz həllini tapmışdır. Son zamanlar rayonumuzun ondan çox kəndində su problemi öz həllin tapmışdır. Bu kəndlərdən biri də Cəmcəmli kəndidir ki, hər evə su xətləri çəkilərək dayanıqsız su verilmişdir. Bunun nəticəsi olaraq kənd sakinləri həyətyanı sahələrdə bostan və tərəvəz əkinlərinə başlamışlar.Buna misal olaraq Cəmcəmli kənd sakini Əmmirov Samir Babaseyid oğlu 0.2 ha sahədə əkdiyi kartof məhsulunu çıxardıqdan sonra10-dan artıq imkansız ailəyə 20 kq -dan artıq çəkidə paylamışdır. Kənd saknləri onun bu gördüyü işi rəğbətlə qarşılamışlar. Bu şəraiti yaratdığı üçün ölkə rəhbəri cənab İlham Əliyevə dərin minnətdarlıq etmışlər. Ona uzun ömür ,can sağlığı işlərində qalibiyyət arzulamışlar.



# Gənc hərbçi Murad Ağayev



***Ağayev Murad Ağa oğlu rayonumuzun Poladlı kəndində anadan olub. Doğma kənddəki orta məktəbi bitirib. Bir gənc kimi YAP-nın sıralarına qəbul olub.***

2016-cı ildə həqiqi hərbi xidmətə çağırılıb. Hələ hərbi xidmətdə olarkən valideynlərinə təşəkkür məktubları gəlib.

Murad hərbi xidmətini başa vurduqdan sonra valideynlərinə orduda xidmət etməyi bildirir. Çünki bu gəncin ürəyi vətən eşqi ilə döyünürdü. Həmişə vətənpərvərliyi ilə seçilirdi. Bel\liklə valideynləri ilə yanaşı babası Abdulhəsən bəyin və nənəsi Laizə xanımın xeyir duası ilə müqavilə əsasında " N" saylı hərbi hissədə xidmət etməyə başlayır.

Verilən tapşırıqları səylə yerinə yetirdiyinə görə hissə komandiri tərəfindən valideynlərinən təşəkkür məktubları gəlir.

Murad Ağayev fədakarlığına görə "Fəxri fərman"lara, Azərbaycan Ordusunun yaranmasının "100 illik" , və "102 illik" yubiley medallarına layiq görülür.

Murad Ağayev bu gündə "N" saylı hərbi hissədə xidmətini layiqincə davam etdirir.

Söhbət zamanı Murad bildirdi ki, xalqımızın orduya güvənci böyükdür. Bu inam, etimad biz, hərbiçilərə könül xoşluğu verir. Hamımızın amalı birdir- işğalda olan torpaqlarımızı azad etmək.

Biz də bu şərəfli, nəcib işində gənc hərbiçimiz Murad Ağayevə uğurlar arzulayırıq.

***Məhəmməd Bayramov***

# 2020-ci ilin sentyabr ayı ərzində vergi orqanına təqdim edilməli olan bəyannamələr, hesabatlar, ödənilməli vergilər və sığorta haqları barədə yaddaş

*21 sentyabr 2020-ci il tarixədək*

Gəlir vergisi (Xüsusi notariuslar üzrə): Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübüdür. Xüsusi notariuslar tərəfindən hər bir ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablamalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidir.

***Gəlir vergisi (İdman mərc oyunları, lotereyalar, habelə digər yarışlar və müsabiqələr üzrə):*** İdman mərc oyunlarından, lotereyalardan, habelə digər yarışlar və müsabiqələrdən uduşlar (mükafatlar) əldə edən şəxsdən ödəmə mənbəyində tutulan gəlir vergisi üzrə hesabat dövrü aydır. İdman oyunları ilə əlaqədar aparılan idman mərc oyunlarından, lotereyaların keçirilməsindən, habelə digər yarışlardan və müsabiqələrdən uduşlar (mükafatlar) əldə edən şəxsə ödəmələr verən şəxslər ödəmə mənbəyində gəlir vergisini hesablayaraq tutmağa, hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq hesablanmış vergini dövlət büdcəsinə köçürməyə və həmin müddətədək "Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan vergi bəyannaməsi"ni vergi orqanına verməyə borcludurlar. Lotereyaların keçirilməsindən, digər yarışlardan və müsabiqələrdən gəlir (mükafat) rezident şəxslər tərəfindən ödənildiyi halda ödəməni həyata keçirən şəxslər, həmin gəlirlər Azərbaycan Respublikasında daimi nümayəndəliyi olmayan qeyri-rezident şəxslər tərəfindən ödənildikdə isə bu gəliri əldə edən şəxsin bank hesabının olduğu yerli bank, xarici bankın Azərbaycan Respublikasındakı filialı və ya poçt rabitəsinin milli operatoru ödəmə mənbəyində gəlir vergisi hesablayaraq tutmağa, hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq hesablanmış vergini dövlət büdcəsinə köçürməyə və həmin müddətədək "Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan vergi bəyannaməsi"ni vergi orqanına təqdim etməyə borcludurlar.

***Əlavə dəyər vergisi:*** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün, hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.

***Aksizlər:*** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.

***Yol vergisi:*** Yol vergisi üçün hesabat dövrü təqvim ayı sayılır. Azərbaycan Respublikasının ərazisində avtomobil benzininin, dizel yanacağının və maye qazın istehsalı ilə məşğul olan fiziki və hüquqi şəxslər yol vergisini aylıq olaraq hesablayır və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq "Yol vergisinin bəyannaməsi"ni vergi orqanına təqdim etməklə vergini dövlət büdcəsinə ödəyirlər.

***Mədən vergisi:*** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verirlər. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

***Sadələşdirilmiş vergi (Daşınmaz əmlakın təqdim edilməsi üzrə):*** Bu fəaliyyət üzrə sadələşdirilmiş vergi üçün hesabat dövrü aydır. Daşınmaz əmlakın təqdim edilməsi üzrə müqavilələri təsdiq edən notarius sadələşdirilmiş vergini hesablayaraq 1 (bir) bank günü ərzində dövlət büdcəsinə ödəməyə və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq "Daşınmaz əmlak təqdim edən şəxslərdən ödəmə mənbəyində tutulan sadələşdirilmiş verginin bəyannaməsi"ni vergi orqanına verməyə borcludurlar.

***Sadələşdirilmiş vergi (Pul vəsaitlərinin nağd qaydada çıxarılması üzrə):*** Bu fəaliyyət üzrə sadələşdirilmiş vergi üçün hesabat dövrü aydır. Hüquqi şəxslərə və fərdi sahibkarlara bank hesablarındakı pul vəsaitlərinin nağd qaydada verilməsini həyata keçirən yerli banklar, xarici bankın Azərbaycan Respublikasındakı filialı və ya poçt rabitəsinin milli operatoru tərəfindən 1 faiz hesablanan vergini vəsaiti alan şəxsin bank hesabından tutulur, hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq hesablanmış vergi dövlət büdcəsinə köçürülür və həmin müddətədək "Pul vəsaitlərinin nağd çıxarılmasına görə sadələşdirilmiş verginin bəyannaməsi" vergi orqanına təqdim edilir.

***Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:*** Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

***Sığorta müqaviləsi vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:*** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

## Qobustan rayon prokurorluğunun 2020-ci ilin oktyabr-dekabr aylarında vətəndaşların yaşayış yerləri üzrə qəbuluna dair QRAFİKİ

| Sıra №-si | Vətəndaşların qəbulu keçirilən ərazi | Qəbulun keçirilmə vaxtı | Vətəndaşları qəbul edən məsul şəxs |
|---|---|---|---|
| 1. | Qobustan rayonu İHB-nin Cəmcəmli kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyi | 30.10.2020<br>11:00-13:00 | Rayon prokuroru<br>Səadət Rüstəmova |
| 2. | Qobustan rayonu İHB-nin Sündü kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyi | 27.11.2020<br>11:00-13:00 | Rayon prokuroru<br>Səadət Rüstəmova |
| 3. | Qobustan rayonu İHB-nin Ərəbqədim kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyi | 25.12.2020<br>11:00-13:00 | Rayon prokuroru<br>Səadət Rüstəmova |

**QEYD:** Kəndlərdə qəbulların keçirilməsi ilə əlaqədar əvvəlcədən Qobustan rayon İHB-nin inzibati ərazi dairəsi üzrə nümayəndəliklərinə və bələdiyyələrə məlumat verilməlidir

**Qobustan rayon prokuroru**
**kiçik ədliyyə müşaviri** **Səadət Rüstəmova**

## ELANLAR

Dərgahov Bəxtiyar Atalı oğluna və ailə üzvlərinə DT və XK tərəfindən verilmiş Qobustan rayon Təklə Mirzəbaba kəndində yerləşən JN-167 nömrəli kod 30703028 torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyi üçün etibarsız sayılır.

Alışov Cəmil Qəhrəman oğluna məxsus 23 iyun 2007-ci il tarixli BN№271596 saylı attestat naməlum şəraitdə itmişdir. Tapanlardan xahiş olunur redaksiyamızla əlaqə saxlasınlar.

*Təsisçi:* Qobustan Rayon İcra Hakimiyyəti
www.qobustan-ih.gov.az

*Baş redaktor:* Ruslan Şahbazov
Tel.: (050) 524 28 10
(070) 224 28 10

*Ünvan:* Qobustan şəhəri, Heydər Əliyev prospekti. Qobustan Rayon İcra Hakimiyyətinin binası.
Qəzet ayda iki dəfə çıxır

Qəzet "Son dəqiqə" mətbəəsində çap olunmuşdur
Tiraj: 2000
E_mail:qobustanqazeti@mail.ru